**İnformativ tipli elektron xidmətlərdən istifadə...**

Vətəndaşların qəbulu, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, vaxt sərf etmədən xidmətlərdən istifadənin təmin edilməsi Vergilər Nazirliyinin qarşısında duran vacib məsələlərdəndir. Bu istiqamətdə elektron xidmətlərin göstərilməsi, vətəndaşların sual və müraciətlərinin dərhal cavablandırılması vergi ödəyiciləri tərəfindən müsbət qiymətləndirilir.

Qəzetimizin əvvəlki nömrələrində vergi ödəyicilərinə göstərilən bəzi elektron xidmətlər barədə məlumatlar vermişdik və həmin elektron xidmətlər interaktiv tipli xidmətlər olmuşdur. Bu nömrəmizdə isə nazirlik tərəfindən göstərilən 2 informativ tipli elektron xidmət barədə yazacağıq.

İlk olaraq, «Kommersiya hüquqi şəxsinin adının unikallığının yoxlanılması» elektron xidməti barədə məlumat verək. Bu xidmət ölkədə yeni yaradılan kommersiya hüquqi şəxsinə təsisçi tərəfindən verilən adın unikallığının yoxlanılması proseslərini əhatə edir. Xidmət tam avtomatlaşdırılıb. Sistemdə göstərilən informativ xidmətlər istifadəçilər üçün daim açıqdır və sistemə müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırılmır. Xidmətdən istifadə etmək üçün yeni yaradılacaq kommersiya hüquqi şəxsin seçilmiş adının xüsusi hissəsi, yəni hüquqi şəxsin adının təşkilati-hüquqi formaya qədər olan hissəsi böyük latın hərfləri ilə sistemə daxil edilir. Sorğunun sistemə daxil edildiyi an hüquqi şəxsin adının unikal olub-olmadığı barədə məlumat ekrana çıxarılır. İstifadəçinin istəyindən asılı olaraq, ona oxşar adlı hüquqi şəxslərin adlarına baxış imkanı yaradılır. Qeyd edək ki, hüquqi şəxsin adının unikallığı barədə məlumatın, eləcə də oxşar adlı hüquqi şəxslərin adlarının ekrana çıxarılması dərhal yerinə yetirilir. Sorğunun yerinə yetirilməsindən imtina halı isə yoxdur.

Elektron xidmət servisinin daim işlək vəziyyətdə olması Vergilər Nazirliyi tərəfindən gündəlik nəzarətdə saxlanılır və xidmətin daim işlək vəziyyətdə olması təmin edilir. Elektron xidmətin göstərilməsi üzrə mübahisələrə qanunvericiliklə müəyyən edilmiş qaydada yuxarı vergi orqanında və məhkəmələrdə baxılır. Elektron xidmətin göstərilməsi üzrə Vergilər Nazirliyinə göndərilmiş heç bir şikayət kənarda qalmır, bütün şikayətlər cavablandırılır və şikayətçi məhkəməyə şikayət vermə hüququ barədə məlumatlandırılır. Şikayətlərə «İnzibati icraat haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə baxılır.

Digər elektron xidmət isə Vergilər Nazirliyinin «İstehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri barədə məlumatların əldə edilməsi» xidmətidir. Bu xidmət istifadəçilərin vergi orqanlarının nəzarət əhatəsinə daxil olan ərazilərdə faktiki istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərini, onların istehsal etdiyi məhsulların növü və ticarət adı, istehsal sahəsinin faktiki fəaliyyət göstərdiyi ünvan barədə axtarış bazası üzrə geniş və operativ məlumatların əldə edilməsi imkanlarını əhatə edir.

Xidmət göstərilməsi prosesi avtomatlaşdırılmış informasiya sistemləri vasitəsilə həyata keçirilir. Bu barədə müraciət edən istifadəçi «İstehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri üzrə axtarış bazası» üzrə öndə açılmış «İstehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri barədə məlumat» adlı ekranda «Vergi ödəyicisinin adı» qrafasına sorğu edilən vergi ödəyicisinin adını, «VÖEN» qrafasında həmin vergi ödəyicisinin VÖEN-ni, «İstehsal etdiyi məhsulun növü» qrafasında müvafiq məhsulun növünü, «Məhsulun ticarət adı» qrafasında həmin məhsulun ticarət adı, «Aid olduğu vergi orqanı» qrafasında vergi ödəyicisinin qeydiyyatda olduğu vergi orqanı, «Şəhər/rayon» qrafasında istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyicisinin yerləşdiyi müvafiq şəhər və ya rayon, «İstehsal sahəsinin faktiki fəaliyyət göstərdiyi ünvan» qrafasında isə istehsal sahəsinin faktiki fəaliyyət göstərdiyi ünvanı daxil etməklə, «Axtar» düyməsi vasitəsilə avtomatik olaraq həmin istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyicisi barədə müvafiq informasiya əldə edir.

Bu xidmətdən yararlanmaq istəyən istifadəçi vergi orqanlarının nəzarət əhatəsinə daxil olan ərazilərdəki faktiki istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri, onların istehsal etdiyi məhsulların növü və ticarət adı, istehsal sahəsinin faktiki fəaliyyət göstərdiyi ünvan barədə axtarış bazası üzrə geniş və operativ məlumatlar əldə etmiş olur.

Xidmətdən istifadə prosesində yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki köməkliyin göstərilməsi məqsədilə nazirliyin «195» Telefon-məlumat xidməti fəaliyyət göstərir.

AYTƏN